**Ermənistandan deportasiya edilmiş Qərbi azərbaycanlıların hüquqlarının təmin olunması dövlət siyasətinin strateji və prioritet istiqamətidir. Bu məsələ beynəlxalq hüquq normalarının, insan hüquqlarının və humanitar dəyərlərin bərpası baxımından fundamental əhəmiyyət daşıyır.**

# Qərbi azərbaycanlıların hüquqları qeyd-şərtsiz bərpa olunmalıdır



Tarixi faktlar açıq şəkildə göstərir ki, azərbaycanlılar 1905-1906-cı, 1918-1920-ci, 1948-1953-cü və 1987-1991-ci illərdə indiki Ermənistan ərazisindən mərhələli şəkildə, məqsədli və etnik nifrət zəminində deportasiyalara məruz qalıblar. Təkcə 1948-1953-cü illərdə 150 mindən çox azərbaycanlı Ermənistandakı doğma torpaqlarından vətəni tərk etməyə məcbur edilib. Köçürülmə adı altında baş verən sürgün zamanı minlərlə insan ağır şərait, iqlim dəyişiklikləri, fiziki və psixoloji təzyiqlər nəticəsində həyatını itirib. Bu, həm insanlığa, həm də beynəlxalq hüquqa qarşı törədilmiş cinayətdir.

1987-ci ildən etibarən isə Ermənistan SSR-də qalan 250 mindən çox azərbaycanlının sistemli şəkildə qovulması Ermənistan-Azərbaycan münaqişəsinin yeni mərhələsinə start verdi. Bu, faktiki olaraq etnik təmizləmə idi və deportasiyanın ən son, lakin ən genişmiqyaslı mərhələsi oldu. Deportasiya anlayışı özü - latınca deportatio - qovulma, sürgün etmə mənasına gəlir və beynəlxalq hüququn fundamental prinsiplərinə zidd olan bir hərəkətdir. İnsanların iradəsinə zidd şəkildə məcburi köçürülməsi nəinki onların fərdi hüquqlarının, həm də kollektiv milli kimliklərinin məhv edilməsi deməkdir.

Bu hüquq yalnız nəzəri çərçivədə deyil, praktik səviyyədə də təmin olunmalıdır. Çünki deportasiya insanların kimliyindən, tarixi köklərindən, məzarlarından və mədəni irsindən uzaqlaşdırılması deməkdir. Bu, kollektiv yaddaşa vurulmuş dərin və sağalmaz yaradır.

Azərbaycan dövləti bu haqsızlığın aradan qaldırılması üçün bütün beynəlxalq tribunalarda ardıcıl və prinsipial mövqe nümayiş etdirir. Prezident İlham Əliyevin İqtisadi Əməkdaşlıq Təşkilatının (ECO) Xankəndidə keçirilmiş 17-ci Zirvə görüşündəki çıxışı bu istiqamətdə beynəlxalq dəstəyin güclənməsi baxımından mühüm addımdır. Dövlət başçısı İslam Əməkdaşlıq Təşkilatının (İƏT) deportasiya məsələsi üzrə qəbul etdiyi qətnamənin əhəmiyyətini xüsusi vurğulamış, bu istiqamətdə beynəlxalq həmrəyliyin vacibliyini bir daha gündəmə gətirmişdir.

Azərbaycanın mövqeyi həm hüquqi, həm mənəvi baxımdan əsaslı və haqlıdır. Deportasiya olunan insanların öz doğma torpaqlarına qayıdış hüququ Birləşmiş Millətlər Təşkilatının İnsan Hüquqları üzrə Ümumi Bəyannaməsi, Mülki və Siyasi Hüquqlar haqqında Beynəlxalq Pakt və Qaçqınların statusu ilə bağlı 1951-ci il Konvensiyası və onun 1967-ci il Protokolu kimi sənədlərlə qorunur.

Bu gün beynəlxalq ictimaiyyət Azərbaycanın məsələ ilə bağlı haqlı mövqeyini getdikcə daha çox anlayır və dəstəkləyir. İslam Əməkdaşlıq Təşkilatının 57 üzvünün yekdil qərarı ilə qəbul edilmiş qətnamə bu istiqamətdə mühüm irəliləyiş olsa da, hələ yolun başlanğıcıdır. Əsas məqsəd Qərbi azərbaycanlıların hüquqlarının tam və qeyri-şərtsiz bərpasıdır.

Bu prosesi yalnız regional sabitlik kontekstində deyil, ümumbəşəri ədalətin təntənəsi kimi qiymətləndirmək lazımdır. Deportasiya edilmiş insanların hüquqlarının bərpası həm də beynəlxalq hüquq normalarına hörmətin və BMT prinsiplərinə sadiqliyin göstəricisidir.

Azərbaycan bu istiqamətdə qətiyyətli, ardıcıl siyasət yürüdür və bu mübarizədə beynəlxalq tərəfdaşların dəstəyinə böyük önəm verir.

**Naqif HƏMZƏYEV,**
**Milli Məclisin deputatı.**

Respublika .- 2025.- 6 iyul (№ 136).- S.8.